## İSTANBULDA QIŞ

Dünyanın o üzü də, bu üzü də Okeandır.
Sən sahildəsən, quşlar vurnuxur, qağayılar, albatroslar,
əməkçi liviyalılar. Qaldırıcı kran balıq iyli qayğılardan
qatılaşmış liman havasını piltə-piltə doğrayır.

Tramvay relslərinə açılan kafeyə baş vurmaq?...
Ora da tünlükdür,
hərçənd buranın İstanbul qışından sonra getmək istədiyim
Karib mətbəxi ilə rəqabət aparan menyusunda balıq yoxdur.
Mən cənuba qaçıram...
"Vızıldayan yaşıl gülllədən".

* * *

Səmaya baxıram mən yorğun-arğın,
Və hiss eləmirəm cazibəsini.
Hələ olmadığım sahillərin də,
Vurğunu olduğum şəhərlərin də.

Mən qəm talmudunu tullayacağam,
Deyilmiş kəlamlar nəyimə gərək.
Bu andan sevəcəm vidalaşmanı,
Bir vaxt yuxuları gözlədiyim tək.

Ulduz gecəsinə dönüb dənizdə,
Rahatlıq bularam mən dalğalarda.
Onlar söyləyəcək
Dinclik hardadır,
Azadlıq hardadır
Məhəbbət harda.

## BRAZİLİYA MAHNISI

upuzun bir yuxu
məni yenidən aparır uzaqlara
orda nə söz var nə xəyal
yalnız bizim sevişimiz var

şəhərlərin damı
uzaq ölkələrin nəğməsidir
şəfəqin altunu
asudə bir okeandır
yeni gün
sağollaşmaya qədər bir andır
sən həmişəki tək susursan
və mənimlə də tənhasan

kövrək kölgəsi görünür
yalnız, nazik sözlərin
kabusvari ümidlər
mənə gün bağışladı

perronda yüngül qədəmlər
yağış
yüngül göz yaşı gözləyir
qanadların uzun pərvazının yüngül əl uçuşunu

* * *

Susqun planetlərin
yağmurlu toranında
İstanbulu dolaşır
yaşayan röyalarım.
...orda uyqu yöndəmsizdi...
Damların yelləncəyi
damcıları oxudur,
bu sənin şəhərindi
ya dünyanın ruhudur?...
Dünya qayğılarını
heç də alma vecinə.
Axşam xışıltısını
içinə çək, içinə.

* * *

İtaliyaya yola düşəndə planlaşdırırsan ki, Milanda nələrsə alacaqsan, Venesiyaya baş çəkəcəksən... amma orada dostlarından öyrənirsən ki, Romaya avtomobillə getmək daha sərfəlidir. Yol üstü Florensiyaya baş çəkərsən, daha doğrusu bir dərya autletlər olan ətrafına, toskan mətbəxindən dadarsan və Romada Marlon Brandonun reproduksiyasını alarsan...

Hərdən mənə elə gəlir ki, imkan
heç də həmişə imkan olan yerdə olmur.
Bu İtaliyaya gəlib Romanı görmək üçün
spagetti yemək, Kolizeyə baxmaq, dondurma dadmaq,
yenidən muzeyə getmək, pirojna çeynəyə-çeynəyə
kapuçino buraxmaq kimidir. Və sonra Venesiyaya getmək.
Amma burada yolüstü Florensiyaya baş çəkmək imkanı yaranır
...dolana-dolana ətrafında gözəl təpələrin.
Onlar sanki yamaclarda tikilən evlər üçün yaranıb,
yüngülcə səpişiklə, amma sırayla yox. Yəqin bu onların sahiblərinin
zövqündən xəbər verir.

.... birdən hiss edirsən ki, Sezar şimşək kimi çaxıb
qığılcımlana-qığılcımlana yağış sayaq düşdü yerə.
...çaya döndü çıxıb məcrasından....
Və künclərə doğru axaraq bu evlərə sakin oldu.
O zamandan buralarda hərə özü üçün Sezardı...
Roma imperatoru və Roma papası.
Bu təbiidir - Roma hər yerdə var.

Bu yerlərə baxanda bu açıqca görünür.
Burda günəş boldur. O baxır dikinə.
Bəlkə buna görə burda hər şey tərs-məzhəbdir.
Bəlkə buna görə anlayırsan ki, sən tapdığını
heç də tapammırsan gəzdiyin yerdə,
itirdiyin yerdə də tapmırsan onu.
Sən onu tapırsan gördüyün yerdə.....

Burda Toskanada olduğu kimi
növbəti autlet axtarışında
hüdudsuz barokko səadətini
qəfildən bu yayın içində duydum.

* * *

Taxçada yatmış balıq sadəcə mətahdır.
Bu vaxtı bazarın səs-küyündə,
yuyulmuş ördəklər və düyü təpələri arasında,
mığmığalar, parazitlər və salofan paketlər
onların zərində iranlı ya çinlinin, havaylı, ya amerikalının
təhtəlşüur printi var.
Yəni dəniz sahilində yaşamaq imkanı
arzusunun ironiyası...
Mersedes, əzilmiş bikini, villa, meyvələr məcməyi
dünyanın hər yerindən gətirilmiş
dəniz məmulatı
qum və Aya doğru göz vurub uçan komet parçası.



■ **Kazıbek Şaxan**
*(Qazaxıstan)*

* * *

....demək belə
bu gic şeylər boğucudur
intizar yolun ucudur
hətta bu gün, ...bu yanvarda
heç kim qoparammaz kökündən
uydurulmuş təqvimi.

## TARİX

Təbiətdə tarix yoxdu,
yaşantı var bir də onun ətrafı.
Tarix-sözlü sözardıdır.
Diskaveri kanalında səsdi, mixi yazıdır,
ərəb üslubudur səlnaməçinin,
tarix - alim ya tələbənin yuxusudur,
tarix - qaralmış mürəkkəb qabıdır,
ilkin işığını itirmiş çatlamış palitradır
rəssamın yorulmaz fırçasının izidir
ya da qayğısız qəhrəmanın...

* * *

Əzizim Elxan Zal, necə varsınız?
Nələr oxuyursuz? kimi görürsüz?
Yenə də
gecə dəhlizində komet sayaq sayrışan
siqara ardına siqara küllədirsinizmi?
Çəkilmiş siqaretlər üzrə planetar hakim.
Hər çəkişdən sonra tüstü pərdəsi
ardından boylanan sual işarəsi
bir şölə, ya qığılcımsız keçilməz.
Yenə də bir qullab,
qığılcım ziyalı dalğada saçları çallaşan,
yorğun baxışlı, demək olar ki, lal,
bir şəxsin profilini işıqlandırır.
Fəza efirində alçaq, dalğalı bir səs
gah düşür, gah qalxır,
gah hədyana tutur kainatı
gah da geri qayıdır çiynində xan xalatı.
Sonra çıxarıb atır...
Payızın yağmuru,
şüşənin buzu üstündə qaçan
gözlənən görüşlərin ağırlığı
istiliksiz tüstülənən
közərmiş baxışların
küllənmiş ağırlığını götürür.

Külün arxasında zülmət görünür...
... Yenidən işığa qərq olur,
yeni qığılcıma, yeni oyuna,
çiliyə, parçaya, çəkisiz, tutulmaz yarı nəfəsə,
susqun yarı cavaba, şüa kimi qaynar-qızmar
yarı tövbə, yarı ümid...
Və Morze əlifbası kimi közərib sönən
dağdan ağır gözləyiş.

**Tərcümə edən: Elxan Zal**